BİZNES MÜHİTİ VƏ BEYNƏLXALQ REYTİNQLƏR ÜZRƏ KOMİSSİYANIN "KORRUPSİYA VƏ ŞƏFFAFLIQ" İŞÇİ QRUPUNUN 26 SENTYABR 2023-CÜ İL TARİXLİ İCLASININ

PROTOKOLU

Bakı şəhəri — 26 sentyabr 2023-cü il

Sədrlik etdi:

Asəf Sarıkişiyev	Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, "Korrupsiya və şəffaflıq" işçi qrupunun rəhbəri

Görüşdə iştirak etdilər:

Vüsal Şıxəliyev	Azərbaycan Respublikası Prezidentin Administrasiyasının iqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri;
Kamil Kamilli	Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru, işçi qrupun katibi;
Elçin Nəsibov	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəis müavini;
Elnur Əliyev	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsinin rəis müavini;
Elçin Nəcəfov	Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Hüquq şöbəsinin Korrupsiyaya qarşı mübarizə üzrə daxili nəzarət sektorunun müdiri;
Yaşar Əzizov	Azərbaycan Respublikasının Hesablama Palatasının Ümumdövlət xidmətlərinin auditi şöbəsinin müdiri;

Əliməmməd Nuriyev	"Şəffaflıq–Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə" İctimai Birliyinin icraçı direktoru;
Əhməd Abbasbəyli	"Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri;
Röyanə Seyfəli	"Azərconnect" MMC-nin hüquqşünası;
Sevinc Novruzova	"Azercell Telekom" MMC-nin Hüquq şöbəsinin Etika və Komplayens bölməsinin rəhbəri;
Aydan Nağıyeva	"NEQSOL" Beynəlxalq Şirkətlər Qrupunun baş hüquq məsləhətçisi;

Gündəlik:

- "Korrupsiya və Şəffaflıq" işçi qrupunun rəhbəri Asəf Sarıkişiyev və Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyevin giriş sözü;
- İşçi qrupun 2023-cü il üzrə "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası ilə bağlı həyata keçirilmiş diaqnostik tədbirlərə dair təqdimatın həyata keçirilməsi;
- Özəl sektor subyektləri tərəfindən daxili uyğunluq siyasətinin (Compliance) tətbiqi ilə bağlı sahibkarlar üçün spesifik treninqlərin keçirilməsi ilə bağlı təkliflərə dair məlumat verilməsi;
- Dövlət Xidmət Portalında (https://www.dxr.az/) İqtisadiyyat Nazirliyinə aid müvafiq bölmədə mövcud olan məlumatların yenilənməsi istiqamətində icra olunan tədbirlərə dair məlumat verilməsi;
- Ümumi müzakirələr.

İclasın məzmunu:

İclası giriş sözü ilə açan işçi qrupun rəhbəri Asəf Sarıkişiyev qrup üzvlərini salamlayaraq görüşün gündəliyi və iclas iştirakçılarını elan etdikdən sonra işçi qrupun 2023-cü il üçün "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası ilə bağlı məlumat verdi. Belə ki, Asəf Sarıkişiyev çıxışında müvafiq "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş "Dövlət orqanlarının fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması mexanizmlərini özündə əks etdirən vahid qanunvericilik aktının layihəsinin hazırlanaraq işçi qrupun iclaslarında müzakirəyə çıxarılması" və "Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin müdafiəsinə dair müvafiq müddəaları özündə əks etdirən vahid qanunvericilik aktının layihəsinin hazırlanaraq işçi qrupun iclaslarında müzakirəyə çıxarılması" tədbirlərinin icrası ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən müvafiq qanunvericilik aktlarının layihələrinin hazırlanaraq aidiyyəti üzrə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda sözügedən tədbirlər üzrə məsul icraçı qurum qismində nəzərdə tutulmuş Ədliyyə Nazirliyinə təqdim edildiyini bildirdi. Daha sonra Asəf Sarıkişiyev çıxış üçün sözü Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyevə verdi.

Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev iclas iştirakçılarını salamladıqdan sonra ölkəmizdə dövlət-biznes dialoqunun genişləndirilməsinin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsinin zəruriliyini bildirdi. Vüsal Şıxəliyev son dövrlərdə daşınmaz əmlakın alqı-satqısı sahəsində şəffaflığın təmin edilməsi məqsədilə qəbul edilmiş müvafiq normativ aktların, xüsusilə daşınmaz əmlakın ilkin qeydiyyatı prosedurunun elektronlaşdırılması ilə bağlı görülmüş işlərin əhəmiyyətini qeyd etdi. Habelə, çıxışında "Dövlət Xidmətləri Portalı"nın funksiyaları üzrə optimallaşdırma işlərinin aparılmasının effektivliyinin artırılması məqsədilə müvafiq işçi qrupun yaradılmasının zəruriliyi ilə bağlı Komissiya qarşısında məsələ qaldırılmasının məqsədəmüvafiqliyi barədə təkliflə çıxış etdi.

İclasın davamında çıxış edən İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsinin rəis müavini Elnur Əliyev işçi qrupun 2023-cü il üzrə "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası ilə bağlı həyata keçirilmiş diaqnostik tədbirlərə dair geniş təqdimatla çıxış etdi, habelə, "Dövlət Xidmət Portalı"nda (https://www.dxr.az/) İqtisadiyyat Nazirliyinə aid müvafiq bölmədə mövcud olan məlumatların yenilənməsi istiqamətində icra olunan tədbirlərə dair məlumat verdi. Çıxışının sonunda isə sözügedən təqdimata dair işçi qrupun üzvləri tərəfindən verilmiş çoxsaylı sualları cavablandırdı.

Daha sonra çıxış edən "Azercell Telekom" MMC-nin Hüquq şöbəsinin Etika və Komplayens bölməsinin rəhbəri Sevinc Novruzova özəl sektor subyektləri tərəfindən daxili

uyğunluq siyasətinin (Compliance) tətbiqi ilə bağlı sahibkarlar üçün spesifik treninqlərin keçirilməsi ilə bağlı təmsil etdiyi müəssisə tərəfindən hazırlanmış təkliflər paketi barədə iclas iştirakçılarını məlumatlandırdı.

Qarşılıqlı müzakirələr formatında keçən görüşün sonunda iştirakçılar tərəfindən işçi qrupun 2023-cü il üzrə "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı görülməli işlər və digər mühüm məsələlərə dair çoxşaxəli fikir mübadiləsi aparılmışdır.

Qərara alındı:

1) İşçi qrupun üzvləri tərəfindən "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin operativ və kompleks şəkildə icrasının təmin edilməsi məqsədilə 2023-cü ilin son rübü ərzində zəruri işlərin həyata keçirilməsi davam etdirilsin;

2) Özəl sektor subyektləri tərəfindən daxili uyğunluq siyasətinin (Compliance) tətbiqi ilə bağlı sahibkarlar üçün spesifik treninqlərin keçirilməsi işinin təşkili ilə bağlı sözügedən maarifləndirmə tədbirlərində dinləyici qismində iştirak edəcək şəxslərin (sahibkarların) dairəsinin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə müraciət edilməsi, habelə,qeyd olunan məqsədlə müvafiq siyahının əldə edilərək aidiyyəti üzrə"Azercell Telekom" MMC-yə təqdim edilməsi istiqamətində zəruri işlər görülsün;

3) "Dövlət Xidmət Portalı"nın funksiyaları üzrə optimallaşdırma işlərinin aparılmasının effektivliyinin artırılması məqsədilə müvafiq işçi qrupun yaradılmasının zəruriliyi barədə Komissiya qarşısında məsələ qaldırılması istiqamətində zəruri işlərin görülməsi təmin edilsin;

4) Protokolda qərar alınan müvafiq bəndlər üzrə işçi qrupun katibi tərəfindən işçi qrupun üzvlərinin məlumatlandırılması, bu sahədə koordinasiyanın aparılması və təkliflərin ümumiləşdirilərək işçi qrupun rəhbərinə və Komissiyanın Katibliyinə təqdim edilməsi təmin olunsun (K.Kamilli).

İşçi qrupun rəhbəri: **Asəf Sarıkişiyev**

İşçi qrupun katibi: **Kamil Kamilli**